AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU



"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə

# Nağılları xatırladan bir aləm: Tofiq Mahmudun hekayələrində uşaq dünyası

*Hicran NƏSİBOVA*
**Filologiya üzrə fəlsəfə doktoru**

Azərbaycan uşaq ədəbiyyatının, uşaq mətbuatının inkişafında Tofiq Mahmudun xidmətləri əvəzsizdir. Ömrünün sonuna qədər rəhbərlik etdiyi "Göyərçin jurnalı"nda uşaqların, gənclərin təlim-tərbiyəsinə həssas münasibət bəslədən şair, publisist, yazıçı Tofiq Mahmudun öz əsərlərində də sevgi, həyat eşqi, gözəllik, vətənpərvərlik duyğuları sonsuzdur. Bu təsadüfi deyildi, çünki onun özü son dərəcə işıqlı, nurlu, kövrək, uşaq kimi təmiz insan olub. İstər şeirlərində, istərə də hekayə və povestlərində onun işıqlı ömrünün əmal və məramlarını görmək çətin deyil. Uşaqlar və gənclər üçün yazdığı "Yola çıxıram", "Dibçək", "Buzovna qayaları", "Açıqdır pənərəm", "Alpinistlər", "Meşədə səs", "Ana qucağı", "Qızımın sualları", "Dağlalar", "Ulduzlar", "Düşüncələr", "Kapanak gözəlliyi", "Bu işıqla qalacağam", "Mahabbətim sirr deyil", "Şən şeirlər", "Yağış yağır dəniz", "Gecə qapı döyülür", "Uzaqda ucalan dağlar" və s. kitablarında qələmə aldığı mövzular uşaqların və gənclərin həyatlarındakı önəmli anlar, ibrətamiz hadisələrlə bağlıdır.

Tofiq Mahmud ədəbi aləmdə "Yola çıxıram" (1959) adlı ilk kitabı ilə tanınıb. Bu kitabdakı şeirlər onun ədəbiyyat, sənət yoluna atdığı addımların məsuliyyətini dərk edərək bu yola çıxdığını bildirirdi. O zaman "Azərbaycan müəllimi" qəzetinin müxbiri kimi rayonlara, kəndlərə ezamiyyətə gedir; məktəblərdə uşaqlarla, onların həyat tərzi, dünyası ilə tanış olurdu. Uşaqlar üçün yazdığı "Uzancaq oğlan" və "Dibçək" adlı kitabları da o zaman yazmışdı. 1961-ci ildən "Göyərçin" jurnalında başlayan fəaliyyəti ilə o, uşaq ədəbiyyatına sıx bağlanıb.

Tofiq Mahmudun uşaqlar üçün yazdığı ilk irihəcmli əsəri "Alpinistlər" poemasıdır. Məktəblilərin həyatından bəhs etdiyi həmin əsərdə şair uşaqların vətən torpağına, onun gözəlliyinə heyrət və məhəbbətini qələmə almış, dağların zirvəsinə qalxan, təbiəti, tarixi abidələri öyrənən uşaqların əhval-ruhiyyəsini verməyə çalışıb.

Tofiq Mahmud Azərbaycan təbiətinin vurğunu olan "Bu torpağı tanı sən" adlı silsilə şeirlərində "Süsən gəzir Abşeronu", "Şəhirli meşəbəyi" və digər poemalarında da kiçik qəhrəmanlarına vətənin tarixini, gözəlliklərini sevdirməklə yanaşı, onlarda təbiətə məftunluq, minnətdarlıq hissləri oyadır, duyğuları yaradır, hər bir gözəlliyin qədrini bilib onu qorumağı öyrədirdi.

Kiçik oxucular üçün yazdığı hekayə, nağıl və əfsanələri "Dağlalar adlı kitabında cəmləşdirib 1976-cı ildə çap etdirən Tofiq Mahmud həm də bir nəsir kimi uşaqların sevimlisi oldu. "Qəhrəman təyyarəçinin qardaşı", "Əsgərlər haqqında nağıl", "Meşəbəyinin söhbəti", "Adada hadisə", "Ana qağayı", "Dağlalar", "Yaylaqda" hekayələri, "İgid çapar", "Minarədən atılan daşlar", "Işıq", "Dəmirçinin qəzəbi" əfsanələri, "Xeyirxah adam", "Odalatlı fil", "Bir dərənin sirri", "Kapanak və qarğa", "Boz sərçənin nağılı" və s. nağılları, "Cırtdanın söhbətləri" adlı povesti öz məzmun və ideyası ilə məktəbyaşlı uşaqların xalaqının, dünyagörüşünün formalaşmasında böyük dəyərə malikdir. Hər bir hekayənin dərin məna və düşündürmə gücü gənc nəslin vətən məhəbbətinin, valideyn müqəddəsliyinin, təbiətin əvəzsiz nemət kimi dəyərinin dərkində böyük əhəmiyyəti vardır.

İnsandan kömək uman, qayğıya möhtac canlı aləmə həmişə həssas yanaşmağı, ana təbiətə onun hər bir canlı-cansız hissəsinə diqqətlə, duyğu ilə yanaşmağı, onu qorumağı, qayğısını çəkməyi insanlıq borcu kimi uşaqlara aşılayan, anladan müəllifin humanizmi, ülvi məramı bütün hekayələrində işıqlı bir uşaq dünyası qurur.

"Meşəbəyinin söhbəti" hekayəsində təbiətin gözəlliyini paylaşan insan və heyvanların qarşılıqlı qayğı və bir-birinə münasibətlərində anlaşdıqları səssiz hisslərin təsviri verilir. "Ana qağayı" hekayəsi da insanla quşların "dialoqu" üzərində qurulub. Yuvasındakı yumurtaları təhlükədə olan qağayı qayıqdakı insanlardan kömək istəyir, onun həyacan və təşvişini sadə, duyğulu bir dillə ifadə edən müəllif uşaqlara məhrəmat, diqqət, qayğıkeşlik tələin edir.

"Qəhrəman təyyarəçinin qardaşı", "Qəhrəmanın heykəli", "Dağlalar", "Əsgər şəkli" hekayələri həm uşaqlar, həm də böyüklər üçün ibrətamiz məna kəsb edir. Bəla ki, böyüklərin qəhrəmanlığı, mərdliyi, igidliyi ilə fəxr edən uşaqlar onlara bənzəməyə çalışır, onlarla qürurlanır, onlardan nümunə götürürlər. Uşaqlarda axlaqi dəyərlərin formalaşmasında böyüklərin məsuliyyətini nəzərə çatdıran və onların gənc nəslə örnək olacaq həyatları təqdir edilən bəla hekayələr böyük əhəmiyyət daşıyır. Məsələn, müharibədə igidliklə vuruşub halak olan dayısı Söhrabın şəklini çəkdirib onu əbədiləşdirməyə istəyən Səlimə, kapitan atası ilə qürur duyan Faiq, Mehdi Hüseynzadanın heykəli qarşısında pioner andı içən Kamilə, qonşuluqda ev-muzeyi olan qəhrəmanın həyatı ilə maraqlanan, onun anası ilə ünsiyyət quran, muzeya gələn qonaqlara hövsələ, qürur hissi ilə məlumat verən balaca Şükufə (sonralar o muzeyin işçisi olur) uşaqlara mənən yaxın, onlara tanış, onların rəğbət bəslədikləri obrazlardır.

"Yaylaqda" hekayəsində Tofiq Mahmud Azərbaycan təbiətinin, dağların, şəfah bulaqların, min bir dərdin-dərmanı otlarınçiçəklərin insan ömründə dəyərini göstərir. Yüzdən artıq yaşı olan, "azar-bezar görməyan" Şirəli babanın dediklərə də vətənin insan üçün əvəzsiz nemət olduğunu ifadə edir.

Həssas, qayğıkeş, cəsarətli olan məktəbli Davud yaylaqda keçirdiyi hər an dağ həyatına heyran olur. Tofiq Mahmud Davudun təbiətə - onun gözəlliyinə də heyran halını ustalıqla təsvir edir. Davud uşaq qəlbi ilə dünyanın gözəlliklərini dərindən duyur, görür və yaşayır: "Havanın qaralmağda olduğunu, nəhəng dağın dumanda itdiyini, dərənin yuxarı başında dayanmış çobanı gördü. Nə qəribə mənzərə! Duman bulğı kimi qalxır, çobanı tamamilə gizlətmək, öz qoynunda itirmək istəyirdi. Davud dərəyə yaxınlaşdı. Duman ələ bil dərədan qaynayıb çıxırdı". Ana təbiətin bu gözəlliyini bir uşağın dərindən, həssaslıqla müşahidə etməsi, onu "dərə elə bil ağ dənizdir" - deyə səciyyələndirməsi yazıçının sənətkarlıqla tapdığı priyomdur ki, bununla gənc nəslə yurdun hər qarışını, dağını, dişəni sevdirmək, qiymətini başa salmaq məqsədi daşıyır.

Kiçik bir hekayədə bir neçə hadisəni birləşdirib bir süjet ətrafında məharətlə qurub və bir günün ərzində Davuda yaşatmaq da yazıçının sənətkarlığından xəbər verir.

"İgid çapar" hekayəsindəki kiçik çaparın qəhrəmanlığı, vətənpərvərliyi oldüqca ibrətamizdir. Əfsanə adlandırdığı bu hekayədə yazıçı xalqının, elinin yolunda ölümü tərəddən edən oğlanın şücaətini qələmə alır.

Uca dağların başında bir qalada azad bir oba yaşayır. Düşmənlər o qalanın yolunu tapmağa çalışırlar. Çəngəlliklər, qayalıqlar bu obanın yollarını bağlamışdı. Bu dağlarda at belində görünüb bir anda yoxa çıxan bir oğlandan xəbər tutan düşmənlər onun izinə düşür, sildırımlı bir uçurumun dar cığırında onun yolunu kəsirlər.

Əllərindəki biçaqla kiçik çaparı hədələyən düşmənlər, əgər obaya gedən yolu göstərsə, onu salamat buraxacaqlarını deyirlər. Balaca çaparın "yox"...yox!" - deyə dağlarda əks-səda verən səsindən vahimələnən düşmənlər onu tutmaq istəyəndə uşaq bir anda qışkimi özünü böyük və dərin uçuruma atır. Balaca igid çaparın elinə sədaqəti, şücaəti onları heyrətə salır. Ölümü ilə məğlubedilməzliyin təcəssümü qarşısında düşmənləri sarsıdan bu igid oğlana qalanın ən uca bürelərindən birinə heykəl qoyurlar.

Gənclyin vətənə sədaqət hisslərinin formalaşmasında lazım olan ən təsirli məqamlar elinə-obasına etibar, sədaqət örnəyi olan bu kiçik əsərun hərəkətlərində öz əksini tapır.

Vətənpərvərliyin, azadlıq eşqinin bariz ifadəsini "Dəmirçinin qəzəbi" hekayəsində görmək olar. Dəmirçidən qılınc düzəltməsini xahiş edən Səlim baba deyir ki, düşmənlər nəcə şəhəri talan edibər, bir gün bizim də üstümüzə gələ bilərlər, heç olmasa qılınçım olsun, dedim. Bu əsərdərdıkı kimi dəmirçini də gəncləri də ayıldır. Çaladdın ordusu ilə bu torpağı talan edəndə isə onun əsərlərinin bir qoca ilə vuruşduğu xəbəri yayılır. İl yüşgə gəlir qocanın silahını Bəndər dəmirçi götürüb düşmənlə vuruşur və xalq ona qovulur, bu üsyandan sonra düşmən qovulur.

Məhz belə əsərləri oxuyub vətənpərvər böyüyən 1970-ci illərin uşaqları 1980-ci illərdə vətənin azadlığı naminə meydanlarda yumruqlarını sıxaraq, böyük imperiyanın yeritdiyi tanklara bədənlərilə sipər çəkdilər. Gənclyin vətənpərvər yetişməsində yazıçı və şairlərimizin rolu danılmazdır. Uşaq ədəbiyyatını düzgün istiqamətdə təbliği hazırkı durumumuzda da vazkeçilməzdir. Azərbaycanın 20 faiz torpaqlarını yalnız bu xalqın dayanaqı, vətən sevgisi düşmənden azad edə bilər. Bunun üçün dəmirçi Bəndər kimi gecə-gündüz körük başında" tər tökmək gərək olduğunu gənclyimiz anlamalıdır.

T.Mahmudun başqa bir dəmirçi obrazı "Işıq" əfsanəsindədir. Bu əsərdə dəmirçi Əhmədlə tacirin mənəvi aləmlərinin təzadlarını ayani həyat lövhələri ilə verən yazıçı toplum içində insanın yaşam fəlsəfəsini sadə aydın detallarla izah etməyə çalışır.

Dəmirçi Əhmədin pənərəsindən gələn gur işıqlar ətrafdakıları sevindirə də, xəbis, xəsis tacirin həsədina səbəb olur. Dərvişin "Get bazardan çıl-çıraq, qəndil, al, as evindən" - ironiyasını dərk etməyən cahil taciri başa salmaq üçün onu dəmirçinin evinə aparır. Buradakı mehribanlıq, səmimilik, alicənablıq-xoşbəxtlik və səadəti tacirə göstərəndən sonra dərviş deyir:

"İndi bildinmi dəmirçi Əhmədin evi niyə işıqlıdır. Çünki onun ürəyi işıqlıdır, ürəyi! Camaat onu çox sevir, evini də həmişə işıqlı görür. Dəmirçi səi insan kimi yaşayır. Evinin qapısı hamının üzünə açıqdır".

Gənclyin düzgün tərbiyəsi üçün çox ibrətli misal söyləyən yazıçı yalnız uşaqların nəzərdə tutmur, həm də insanların xəbis, paxıl xüsusiyyətlərinin eyibəcərliyini izah etməyə yönəlmiş bir məntiq sərgiləyir.

Tofiq Mahmud kiçikhəcmli nəsr əsərlərinin həm əfsanə, həm nağıl formasında maraqla qarşılanacağını və uşaqların nağıla meyillərini bildiyi üçün bu şəkilərdə təqdim etmişdir. "Xeyirxah adam", "Odalatlı fil", "Bir dərənin sirri", "Kapanak və qarğa", "Həm gözəl, həm doğma", "Boz sərçənin nağılı", "İradə" kimi əsərlərində qəhrəmanlar xeyirxah insanlardır. Yazıçı öz humanist əmalına sadiq qələraq gənc nəslin ancaq gözəl insan olması naminə bütün vəsitələrdən istifadə edərək hər bir detalların məqsədə uyğun işlədilməsi nəticəsində demək və vermək, çatdırmaq istədiklərini nəzil ola bilir. Məsələn, yazıçı "Xeyirxah adam" hekayəsində Fərəmə yaxşılıq edən insanların hərəkətləri ilə ələ əsərin içində kiçik qəhrəmanın özünü tərbiyə edir. Yetim, kimsəsiz uşaq yaxşılığın dünya mənlıdan daha dəyərli olduğunu dərk edir, özü-özünü yaxşılığa doğru yönəldərək, xeyirxah olmağa can atır və nəhayətdə "xeyirxah adam" olur. Onu çətin günlərində sovyuqdan, acıqdan ölməyə qoymayan insanlar kimi sonralar o da bir hayat xilas etmək üçün can atır. Saraylarda yaşamaqdan insanlara yaxşılıq etməyi üstün tutur və elə də olur.

Həyatda yaşamanın ən ali niyyətini yaxşılıqla insanlara yaramağın ucalığını dərk etmək üçün uşaqlara təsir edəcək belə hekayələr Tofiq Mahmudun uşaq nəsrinin dəyərini göstərir. Onun əsərlərində adalət, xeyirxahlıq, mərhəmət hissləri həm insanların, həm də heyvanların və quşların obrazlarına şamil olunur. ("Meşəbəyi", "Soltantoyuğu", "Odalatlı fil", "Boz sərçənin nağılı" və s. hekayə-nağıllarında olduğu kimi)

Hekayələrdə uşaqların şüuruna təsir edəcək çox səmimi, sadə bir dillə söylənən yaxşılıqlardan sonra həyat gözəllər, insanlarla bərabər xeyirxahlıq edənlər özləri də sevinirlər. Susuzluqdan yanan kəndlərinə su çəkən Valinin dediyi kimi insan gərək həmişə axtarsın, heç nədən qorxmasın, gözəl-gözəl işlər görsün. Bu hekayədə də gənclyi öyrənməyə, cəsarətə, xeyirxahlığa çağıran Tofiq Mahmud öz amalına sadiq bir sonluq verir.

"Həm gözəl, həm doğma" nağılında şahın istədiyi kimi misilsiz bir saray tikməyə razı olan Abdulla şərt kəsir ki, şah özü də gərək zəhmət çəksin. Özəmətli, gözəl saray ucaldıqca şah dönə-dönə naxışlara baxıb fərəhlənir, bu gözəlliyi gördükcə sevinir, daha ciddi çalışır. Nağıldakı ibrətamiz məntiqin gücü ustanın sözlərində belə ifadə olunur: "Mən istəyirdim ki, bu sarayda sizin də zəhmətiniz olsun, alın tərinizi olsun! Onda saray sizə daha əziz olar". Bu hikmət insanın alın təri ilə yaratdığı hər gözəlliyin dəyərini göstərir və gənclyi əməyə, gözəlliklər yaratmağa istiqamətləndirir.

Tofiq Mahmudun kiçikhəcmli nəsr əsərlərindəki vətənpərvərlik, əməksevərlik, cəsurluq, xeyirxahlıq, humanizm, etibar, sədaqət və s. göründən gənclyin əxlaqi dəyərlərinin formalaşmasında müsbət təsirə malik olacağı danılmazdır. Bu əsərlərin dilinin sadəliyi, aydınlığı orta məktəb dərsliklərində bu mövzuların şagirdlərə öyrədilməyini zəruri edir. Uşaqlarımız üçün cizgi filmləri və ya çəsəmetrəjli bədii filmlərin çəkilməsinə ehtiyac olduğu indiki zamanda Tofiq Mahmudun uşaq hekayələrinə müraciət etmək məqsədəuyğun və gərəklidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yuxarıdakı materiallar Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub